# Cənubi Qafqazda sülhü Azərbaycan təmin edəcək

## Ermənistanın Fransanın təhriki ilə bölgəni müharibə meydanına çevirməsinə qətiyyən yol verilməyəcək

Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində də bəyan etdi ki, Ermənistan da bilməlidir ki, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik: "Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla həmin təhlükəni istənilən nöqtədə məhv edəcəyik".

→ 10

# Cənubi Qafqazda sülhü Azərbaycan təmin edəcək

## Ermənistanın Fransanın təhriki ilə bölgəni müharibə meydanına çevirməsinə qətiyyən yol verilməyəcək



**Fevralın 17-də Münxendə Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş keçirildi. Siyasi şərhçilər Almaniyanın təşəbbüsü ilə baş tutan bu ikitərəfli görüşü Ermənistan-Azərbaycan arasında normallaşmaya nail olunması üçün əhəmiyyətli addım kimi qiymətləndirdilər.**

Amma üzərindən heç bir həftə keçməmiş - 2024-cü il fevralın 23-də Paşinyan "France 24" telekanalına müsahibə verərək ölkəmizə qarşı sərsəm açıqlamalar verdi, Azərbaycanın Ermənistana hücuma hazırlaşdığı kimi absurd və tamamilə böhtan xarakterli iddialar irəli sürdü. Özü də riyakar Paşinyan bu müsahibəni Ermənistan müdafiə naziri ilə Fransa müdafiə nazirinin İrəvanda yeni əməkdaşlıq sazişləri imzaladıqları gün verdi.

Təbii ki, Paşinyanın Fransaya səfəri zamanı verdiyi açıqlamalar Münxendə əldə olunmuş pozitiv siqnallar və irəliləyişə zərbə oldu. Ermənistan tərəfi təkzibolunmaz şəkildə sübut etdi ki, İrəvan sülhə yox, müharibəyə hazırlaşır, özü də Fransanın türkofob, islamofob, azərbaycanofob prezidenti Makronun təhriki ilə.

### Bu dəfə Ermənistan qurban seçilib

Makronun Münxendəki irəliləyişdən narahat olaraq, bir müddət müttəfiqlik etdiyi Almaniya Kansleri Olaf Şoltsun sülh prosesi istiqamətində təşəbbüs göstərməsini qısqanclıqla qarşıladığı gün kimi ortadadır. Fransa qətiyyən Cənubi Qafqazda sülhün olmasını istəmir və buna görə də vəziyyəti gərginləşdirmək, Ermənistanı faktiki olaraq Ukrayna kimi qurban vermək bahasına, bölgədə münaqişənin heç bitməməsinə çalışır. Makronun məkrli məqsədi Ermənistandakı Rusiya hərbi bazasını Fransa bazası ilə əvəz etməkdir. Buna İrəvan hava limanından rusiyalı hərbçilərin çıxarılması, Paşinyanın yuxarıda sözügedən müsahibəsində Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirakını dondurması barədə açıqlaması, Fransanın müdafiə nazirinin Ermənistan üçün ayrılmış hərbi texnika ilə İrəvana səfər edəcəyini bəyan etməsi və sair də bariz nümunələrdir.

Vurğulayaq ki, Fransanın Rusiyanın Ermənistandakı bazasının çıxarılması və əvəzində fransız bazasının yerləşdirilməsi planından İranın kəşfiyyat orqanlarının da məlumatı var və Tehran da bundan narahat olub. Təbii ki, Qərbin Ermənistan üzərindən burnunun dibinə yerləşməsi İrana qətiyyən sərf etmir. Buna görə də çox labüddür ki, Tehran bir zamanlar özünün qırmızı cizgisi elan etdiyi Ermənistana qulaqburması belə versin...

Siyasi iradəsi olmayan Paşinyan hökuməti ipini Fransanın, Qərbin əlinə verib və bölgəni qan gölünə çevirmək üçün müharibəyə hazırlaşır. Fransadan, Hindistandan aldığı hərbi texnikalara güvənərək revanş etmək, separatizmi yenidən alovlandırmaq iştahasına düşür.

### Təhlükə mənbəyi məhv ediləcək

Bakının bütün beynəlxalq platformalarda Fransanın XXI əsrdə də müstəmləkə siyasəti yürütməsini ifşa etməsi, ard-arda siyasi, diplomatik cəbhələrdə məğlubiyyətlərə uğratması, Qarabağdakı separatizmə uzanan dəstək əlini sındırması, təcavüzkar Ermənistan üzərindən Cənubi Qafqaza yerləşmək kimi çirkin planlarını pozması Parisi sarsıdıb. Bir sözlə, Azərbaycana qarşı bütün çirkin addımları nəticəsiz qalan və Prezident İlham Əliyevə məğlub olan Makron indi Ermənistanı yeni müharibəyə hazırlaşdırmaqla məşğuldur və ona hərbi dəstək verir.

Özünü BMT və beynəlxalq prinsiplərə sadiq sivil dövlət kimi yox, irticaçı ölkə kimi aparan və kolonizator simasını gizlətməyən Fransanın hərbi dəstəyi bölgədə qüvvələr balansını dəyişməyəcək. Çünki 44 günlük müharibədə, eləcə də 23 saatlıq antiterror tədbirlərində Fransa da, bütün dünya da Azərbaycan Ordusunun təcavüzkar Ermənistanın ordusunu qarşısında necə diz çökdürdüyünə əyani şahidlik etdi. Eyni zamanda Vətən müharibəsindən sonra Azərbaycan Silahlı Qüvvələrinin daha da gücləndirildiyini bütün dünya bilir.

Buna görə də cəmi 23 saata ermənilərin 30 il qurduğu istehkamları məhv etmiş Azərbaycana Fransa və Hindistanın Ermənistana verdiyi texnikanı darmadağın etmək üçün bir neçə saat kifayət etdiyini də bilməmiş deyil.

Prezident İlham Əliyev bu il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində də bəyan etdi ki, Ermənistan da bilməlidir ki, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik: "Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastion" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla həmin təhlükəni istənilən nöqtədə məhv edəcəyik".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 25 fevral, № 43.- S.1, 10.